## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

**(Əvvəli 2-ci səhifədə).**

Qəbələ Rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 2013-cü ilin birinci rübündə 113,5 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya Qovşağı birinci rüb ərzində 240 min manat tarif gəliri proqnozuna qarşı 241,6 min manat gəlir əldə etmiş, proqnoz tapşırığına 100,6 faiz əməl etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 faiz, yəni 36,9 min manat artıq gəlir əldə edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 2013-cü ilin birinci rübündə 41,9 min manata qarşı 47,1 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığını 112 faiz yerinə yetirmişdir. Dünya Bankının krediti hesabına həyata keçirilən "Maliyyə xidmətlərinin İnkişafı Layihəsi" çərçivəsində struktur islahatları aparılmış, poçt filialının və poşt şöbələrinin avtomatlaşdırılması prosesi həyata keçirilmişdir.

Qəbələ Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində rüb ərzində 31 nəfər 18 yaşadək əlil uşağa, 26 nəfər I, II və III qrup əlillərə və ailə başçısını itirdiyinə görə 5 ailənin 10 uşağına müavinət təyin edilmişdir. Bundan başqa 338 ailənin 357 uşağına uşağın anadan olmasına görə, 4 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənmişdir. 110 ailəyə ünvanlı sosial yardım təyin edilmiş, həmin ailələrdən 1 yaşadək uşağı olan 11 ailənin 12 uşağına müavinət təyin edilmişdir. Hazırda mərkəzdə 481 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsi tərəfindən 2013-cü ilin birinci rübünün yekununa görə gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 1.236 min manata qarşı 1.193,7 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, rüblük proqnoza 96,6 faiz əməl olunmuşdur. Rüb ərzində 230 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 24-ü hüquqi, 151-i fiziki şəxs, 55-i isə pay torpaq mülkiyyətçisi olmuşdur. 1 aprel 2013-cü il vəziyyətinə görə şöbə üzrə 11.625 pensiya işi üzrə 11.983 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Pensiyaçılara təyin olunmuş ümumi pensiya məbləği cari rübdə 1.567,1 min manat, bir pensiya işi üzrə orta aylıq pensiya məbləği 134 manat 80 qəpik təşkil etmişdir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində rüb ərzində işsiz və işaxtaran kimi 180 nəfər vətəndaş qeydiyata alınmış, onların 3 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçmiş 180 nəfərdən 65 nəfəri münasib işlə təmin edilmiş, 6 nəfərə işsizlik müavinəti ödənmişdir.

Yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 343 min kub/metr lildən təmizlənmiş, 129 kub/metr daş beton bəndi cari təmir edilmişdir.

Ölkədə gedən sosial-iqtisadi inkişafın yüksək nəticəsidir ki, Qəbələ bu gün nəhəng inşaat meydanını xatırladır. 2013-cü ilin birinci rübündə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Qəbələ şəhərində inşa edilən Qəbələ Mədəniyyət Mərkəzində, "Aspi-Aqro" MMC-nin sifarişi ilə Qaradeyin kəndində inşa edilən şərab zavodunda, "Gilan" MMC-nin sifarişi ilə Böyük Əmili kəndində inşa edilən 650 başlıq heyvandarlıq kompleksində, "Aqrokompleks Qəbələ" MMC-nin sifarişi ilə Vəndam qəsəbəsində inşa edilən 600 başlıq heyvandarlıq kompleksində tikinti-quraşdırma işləri başa çatdırılmış və həmin obyektlər istismara verilmişdir.

Bununla yanaşı "Gilan" MMC-nin sifarişi ilə Qəbələ şəhərinin şimal hissəsində inşa edilən kanat yolunda, "Tufandağ" dağ xizək yay-qış istirahət kompleksində, "Gilan" İdman Atıcılığı Klubunun sifarişi ilə Bum qəsəbəsində inşa edilən stend atıcılığı kompleksində və "Azərsu" ASC-nin sifarişi ilə inşa edilən Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidən qurulması obyektində tikinti-quraşdırma işlərinin birinci mərhələsi başa çatdırılmış, ikinci mərhələsinə başlanılmışdır.

Cari ilin ötən dövrü ərzində "Azəryolservis" ASC-nin sifarişi ilə inşa edilən Qəbələ şəhəri—Qəbələ Beynəlxalq Hava Limanı avtomobil yolunda, rayon icra hakimiyyətinin sifarişi ilə inşa edilən Qəbələ-Ağdaş yolunun yenidən qurulması çərçivəsində (22 km) yolun abadlaşdırılması və işıqlandırılması sahəsində, 180 şagirdyerlik Kiçik Pirəli kənd tam orta məktəbinin yeni binasının tikintisində, Nəqliyyat Nazirliyinin sifarişi ilə inşa edilən Qəbələ—Küsnət—Laza avtomobil yolunda, "Gilan" MMC-nin sifarişi ilə inşa edilən 1200 yerlik "Konqres Holl" obyektində "Qəbələ" futbol klubunun sifarişi ilə inşa edilən Futbol Akademiyası və stadionlar kompleksində, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin sifarişi ilə Qəbələ şəhərinin şimal hissəsində inşa edilən «Qəbələ Yanğından mühafizə bölməsi»ndə, DİN-nin sifarişi ilə Qəbələ rayonu ərazisində inşa edilən "N" saylı alay şəhərciyində, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nın sifarişi ilə Dəmiraparan çayının yatağında aparılan sahilbərkitmə obyektində, "Gilan" Qəbələ Konserv Zavodunun sifarişi ilə Qəbələ şəhərində inşa edilən yanacaqdoldurma məntəqəsində, "Cipsi" zavodunda, şərab zavodunda, "Gilan" MMC-nin sifarişi ilə Qəbələ şəhərində inşa edilən "Karvansaray" otellər kompleksində və Yengicə kəndində inşa olunan oteldə tikinti-quraşdırma işləri davam etdirilir.

Ötən rüb ərzində Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən Həmzəli kəndinin mərkəzindən keçən 1,0 km yolda abadlıq işləri aparılmış, kommunikasiya xətləri köçürülmüş, vətəndaşlara məxsus müxtəlif növ hasarlar sökülərək yeni layihə üzrə dekorativ daş hasarlarla əvəz edilmiş və yolun həmin hissəsinə asfalt örtük vurulmuşdur.

2013-cü ilin birinci rübü ərzində Qəbələ Rayon İcra Hakimiyyətinin sifarişi ilə inşa ediləcək 80 şagirdyerlik Yengicə kənd, 220 şagirdyerlik Zirink kənd ümumi orta məktəblərinin binaları və "Mirzəbəyli-Çuxur-Qəbələ-Dizaxlı-Çarxana avtomobil yolunun yenidən qurulması istiqamətində layihələndirmə işləri aparılmışdır.

Ötən rüb ərzində "Gilan" MMC-nin sifarişi ilə Qəbələ şəhərində 7,2 ha ərazidə inşa ediləcək "Akvapark" və 100 ha ərazidə inşa ediləcək "Qolf meydançası" obyektlərində hazırlıq işlərinə başlanılmışdır.

Rayon təhsil şöbəsində "Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı" proqramına uyğun olaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə daha operativ işləmək məqsədi ilə "Şagird-məzun" sistemi yaradılmış və məktəblər üzrə əlaqələndiricilər müəyyən edilmişdir.

Gənc nəslin təlim-tərbiyəsi sahəsində zəngin təcrübəyə malik məktəb və pedaqoji işçilərin qabaqcıl təcrübəsinin öyrənilərək yayılması davam etdirilmişdir.

Təhsil müəssisələrində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə bağlı tədbirlərin hazırlanıb keçirilməsinə start verilmiş və bununla bağlı bilik müsabiqələrinin, rəsm və əl işlərindən ibarət sərgilərin və idman yarışlarının keçirməsinə başlanılmışdır.

Rayon mədəniyyət və turizm şöbəsi 2013-cü ilin ötən dövrü ərzində tarixi və əlamətdar günlərin, dövlət, milli və peşə bayramlarının qeyd olunması istiqamətində xeyli işlər görmüşdür.

Unikal iqlim şəraiti, Qəbələnin turizm sektoruna stimul vermişdir.

Son illər beynəlxalq turizmin inkişafı, respublikada turizm şirkətlərinin və mehmanxanaların sayının artması və ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl işlərdəndir.

Qəbələ isə güclü turizm potensialına malik olan coğrafi ərazidə yerləşmişdir. Burada mütəmadi olaraq keçirilən beynəlxalq tədbir və toplantılar, bölgəyə ildən-ilə artan turist səfərləri mövcud turizm infrastrukturu şəbəkələrinin genişləndirilməsi sahəsində yeni layihələrin həyata keçirilməsinə stimul verir.

Bu gün Qəbələdə 14 mehmanxana tipli obyekt fəaliyyət göstərir ki, onlarının da üçü beşulduzlu, biri dördulduzlu və ikisi üçulduzlu otellərdir. Burada bir gündə 1500-ə yaxın turisti qəbul etmək imkanı vardır.

2013-cü ilin ötən dövrü ərzində Qəbələyə 6 mindən yuxarı turist gəlmişdir. "Tufandağ" dağ xizək yay-qış istirahət kompleksində süni qar aqreqatlarının daimi işləməsi burada ilin bütün fəsillərində qar meydançalarından fasiləsiz istifadə edilməsinə şərait yaradacaqdır. Bütün görülən işlər deməyə imkan verir ki, Qəbələ çox yaxın zamanda Beynəlxalq Turizm Mərkəzi kimi dünyada tanınan bölgələrdən birinə çevriləcəkdir.

Rayon Mərkəzi Xəstaxanasında 2013-cü ilin birinci rübü ərzində büdcə xərcləri 358657 manat olmuş, dərman və sarğı materiallarının alınmasına 69228 manat vəsait xərclənmişdir. Əhaliyə 38943 manatlıq pulsuz dərman preparatları verilmişdir. Belə ki, epileptik və ruhi xəstələrə 7950 manat, şəkərli diabet xəstələrinə 26226 manat, şəkərsiz diabet xəstələrinə 1110 manat, vərəm xəstələrinə 405 manat, parkinson xəstələrinə 595 manatlıq, onkoloji xəstələrə 1070 manatlıq, hemotoloji xəstələrə 963 manatlıq pulsuz dərman verilmişdir.

Məcburi tibbi müayinəyə 7709 nəfərin cəlb edilməsi nəzərdə tutulmuş, onlardan artıq 1501 nəfəri müayinəyə cəlb edilmişdir. Bu da 19.4 faiz təşkil edir.

Tibbi sığorta kartına keçidlə əlaqədar 6 yaşadək uşaqlardan 62 nəfərə tibbi sığorta kartı hazırlanmış, 263 uşağa yeni kart sifariş olunmuşdur.

Heyvan dişləməsi ilə əlaqədar 90 nəfər qeydə alınmışdır. Onlara müvafiq yardım göstərilməklə 627 manatlıq antirabik vaksin, 537 manatlıq antirabik immunoqlobulin sərf edilmişdir. Bu müddət ərzində 2 nəfərdə brüsellyöz, 2 nəfərdə hepatit B, 1 nəfərdə hepatit C ilə yoluxma halı aşkar edilmişdir.

Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 5917 nəfər olmuşdur.

**(Ardı 4-cü səhifədə).**